Xalq qəzeti 2020.3dekabr.S.8.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 465** **Bakı şəhəri, 30 noyabr 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Yaşıllıqların uçotunun, kadastrının və monitorinqinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 15 may tarixli 217 nömrəli, "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" 2018-ci il 28 avqust tarixli 360 nömrəli, "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli, "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın təsdiq edilməsi barədə" 2018-ci il 4 dekabr tarixli 522 nömrəli, "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in təsdiq edilməsi haqqında" 2019-cu il 4 mart tarixli 73 nömrəli və "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2019-cu il 22 aprel tarixli 188 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 15 may tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1125; 2019, № 1, maddə 175) ilə təsdiq edilmiş "Yaşıllıqların uçotunun, kadastrının və monitorinqinin aparılması Qaydası"nın 2.3.2-ci yarımbəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1811) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissədə "11" rəqəmləri "9" rəqəmi ilə əvəz edilsin;

2.2. həmin hissənin "Kollegiyanın üzvləri" bölməsindən "Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi" və "Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi" sözləri çıxarılsın.

**3.** "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 sentyabr tarixli 349 nömrəli və 10 oktyabr tarixli 385 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

3.1.1. 1.4.2.5.4.4-cü yarımmaddədə "Səhiyyə orqanlarına" sözləri "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə" sözləri ilə əvəz edilsin;

3.1.2. 1.4.2.5.5.1-ci, 1.4.2.5.5.2-ci və 1.4.2.5.5.4-cü yarımmaddə-lərdə "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.1.3. 1.4.2.5.5.3-cü yarımmaddədə "Səhiyyə orqanlarına aid olan səhiyyə" sözləri "Büdcə təşkilatı kimi fəaliyyət göstərən tibb" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "221500. "Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması", "221900. "Digər malların alınması" və "279300. "Kommunal və digər xidmətlərə görə təzminat (kompensasiya)" paraqraflarında "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6.1-ci bəndin ikinci cümləsinə "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin;

4.2. 6.1.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.1.8-ci yarımbənd əlavə edilsin:

"6.1.8. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi.";

4.3. 17.3-cü bəndin birinci və ikinci cümlələrinə "Səhiyyə Nazirliyinin" sözlərindən sonra "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507) ilə təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in 6.7-ci bəndinin ikinci cümləsində "Səhiyyə orqanlarının" sözləri "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 779) ilə təsdiq edilmiş "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nın 2.4-cü bəndində "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyində" sözləri "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***